# NƏRİMAN NƏRİMANOVUN 100 İLLİK YUBİLEY MƏRASİMİNDƏ HEYDƏR ƏLİYEVİN MƏRUZƏSİ

***(29 iyun 1972-ci il)***

Yoldaşlar!

Bu gün biz qardaş Sovet Sosialist Respublikaları İttifaqının yaradılmasına partiyanın iradəsi ilə çoxlu əmək və inqilabi qüvvə sərf etmiş olan bir insanın, SSRİ Mərkəzi İcraiyyə Komitəsinin ilk sədrlərindən birinin, V.İ.Leninin şagirdi və silahdaşı Nəriman Nərimanovun anadan olmasının 100 illiyini təntənəli surətdə qeyd etməyə toplaşmışıq. Görkəmli partiya və dövlət xadimi Nəriman Nəcəf oğlu Nərimanovun adı Azərbaycanda inqilabi mübarizə salnaməsinə həmişəlik daxil olmuşdur. N.Nərimanov öz əmək həyatına keçən əsrin 90-cı illərində Qori seminariyasını qurtardıqdan sonra Tiflis quberniyasının Azərbaycan kəndlərindən birində müəllim kimi başlamışdır. Gənc müəllim İctimai ədalətsizliklə ilk dəfə olaraq yaxından üz-üzə gəlmiş, kəndlilərin tam hüquqsuzluğu və dəhşətli yoxsulluğu onu sarsıtmışdı. N.Nərimanovun gördükləri və duyub hiss etdikləri onun şüurunda dərin iz buraxmış, qəlbində mövcud quruluşa qarşı etiraz hisslərini alovlandırmış, siyasi dünyagörüşünün təşəkkülünə güclü təsir göstərmiş, kəskin ictimai problemlərə toxunan ədəbi əsərlərin yaranması üçün əsas olmuşdur. N.Nərimanovun ictimai mədəni-maarifçilik, sonralar isə inqilabi fəaliyyəti Bakıda genişlənmişdi. Burada Qafqazın ən böyük sənaye və proletar mərkəzində, sinfi mübarizə alovunun getdikcə daha da gücləndiyi şəhərdə, N.Nərimanov marksizm ədəbiyyatı ilə tanış olub inqilab hərəkatına qoşuldu. N.Nərimanovun əməkçi kütlələr maarifləndirmək əzmi, insanlara xidmət etmək kimi nəcib bir arzusu, hadisələri dərindən başa düşməsi, istedad və bacarığı onu Azərbaycan demokratik və ictimai-siyasi fikir nümayəndələrinin ön cərgəsinə çıxartdı. O illərdə N.Nərimanovun məşhur "Nadaqlıq", "Bahadır və Sona", "Nadir şah" və digər bədii əsərlərini yazmış, Azərbaycan və rus dillərini öyrənmək üçün dərsliklər və dərs vəsaitləri yaratmışdı, pedaqoji işlə fəal bir surətdə məşğul olur, Azərbaycan dilində qəzet və jurnallar buraxmaq, teatrı inkişaf etdirmək yolunda addımlar atırdı. O, Qoqolun ölməz "Müfəttiş" komediyasını Azərbaycan dilinə tərcümə etmişdi. N.Nərimanov ədəbi yaradıcılığa zəhmətkeşlərin azadlıq və səadəti uğrunda mübarizə vasitəsi kimi, onları şər qüvvələrə, mülkədar və kapitalist zülmünə, nadanlığa, dini fanatizmə və cəhalətpərəstliyə fəal müqavimət ruhunda tərbiyə etmək vasitəsi kimi baxırdı. N.Nərimanov bu meyarları əsas tutaraq, özünün yazdığı kimi, xalq kütlələrini oyadıb inqilaba hazırlamağı öz ədəbi və ictimai fəaliyyətinin qayəsi hesab edirdi. Çarizm və burjuaziya milli ədavəti qızışdırdığı, fəhlə sinfini, xalq kütlələrini milli əlamətə görə parçalamağa çalışdığı şəraitdə N.Nərimanov vəhşi millətçilik və şovinizmə qarşı cəsarətlə çıxış edirdi. "Bahadır və Sona" povestində o, burjua millətçiliyi və dini əlahiddəlik ideologiyasına, köhnəlmiş adət və ənənələrə qarşı böyük bir ideya, xalqlar dostluğu ideyasını irəli sürdü. Vətəndaşlıq cəsarətinin timsalı olan bu əsər Azərbaycan ədəbiyyatında böyük hadisə idi. Azərbaycan hüdudlarından uzaqlarda da demokratik ictimaiyyət onu rəğbətlə qarşıladı. Nəriman Nərimanovun biliyə olan həvəsi 1902-ci ildə onu Odessa universitetinin tibb fakültəsinə gətirdi. N.Nərimanov Odessada tələbə hərəkatında fəal iştirak edir, liman fəhlələri arasında inqilabi iş aparır, xalqın azadlığı uğrunda mübarizədə qətiyyətli olmaq lazım gəldiyini getdikcə daha dərindən başa düşürdü. Birinci rus inqilabı N.Nərimanovun ictimai-siyasi baxışlarını möhkəmləndirdi. 1905-ci ildə N.Nərimanov Bakı bolşevik təşkilatının tərkib hissəsi olan və Bakı Partiya Komitəsinin rəhbərliyi altında işləyən "Hümmət" sosial-demokrat qrupuna daxil oldu. 1906-cı ildə N.Nərimanov RSDFP II qurultayında qəbul edilmiş partiya proqramım Azərbaycan dilinə tərcümə etdi. Birinci rus

inqilabı dövründə yazdığı publisistik məqalələrində N.Nərimanov çarizm, kadetlərin və digər burjua partiyalarının əksinqilabi siyasətini, liberal burjuaziyanın canfəşanlıqla yaydığı konstitusiya xülyalarını amansızcasına ifşa etdi. Nərimanov əmin idi ki, yalnız mövcud quruluşun devrilməsi nəticəsində zəhmətkeşlər əsl mənada azadlığa çıxa bilərlər. N.Nərimanov xalqı tarixi inkişafın hərəkətverici qüvvəsi hesab edir və göstərirdi ki, xalq kütlələrinin inqilabi hərəkatları qarşısında heç bir şey davam gətirib dayana bilməz. N.Nərimanov yazırdı: "Güc birlikdədir... Sel güclü olub içinə atılan ağır daşları çox asanlıqla diyirləyir, özünə yol açır; tarix öz bildiyini edir". N.Nərimanov ġərqdə milli azadlıq hərəkatının inkişafına birinci rus inqilabının təsirini xüsusilə qeyd edirdi. O göstərirdi ki, rus inqilabı Asiyanın bütün xalqlarını hərəkətə gətirmiş, onların feodalizmə və imperializmə qarşı mübarizəsinə güclü təkan vermişdir, rus proletariatının azadlıq ideyaları ġərq xalqlarının mübarizə yolunu parlaq bir məşəl kimi işıqlandırır, onların siyasi və milli mənlik şüurunun inkişafına inqilabiləşdirici təsir göstərir. O illərdə N.Nərimanovun çar istibdadma qarşı, özbaşınalığına qarşı, zəhmətkeşlər arasında beynəlmiləl həmrəylik uğrunda mübarizəyə çağıran səsi təkcə qəzet səhifələrindən deyil, fəhlələrin, inqilabçı tələbələrin, tərəqqipərvər. ziyalıların yığıncaqlarından, toplanışlarından, mitinqlərindən də eşidilirdi. N.Nərimanov Odessada təhsilini başa vurduqdan sonra həkim diplomu ilə Bakıya gəlib öz inqilabi və ədəbi-maarifçilik fəaliyyətini davam etdirdi. Çar orqanlarının təqibləri üzündən N.Nərimanov 1909-cu ildə Tiflisə köçdü, lakin çox keçmədən tutulub Metex qalasına salındı. Altı ay həbsdə qaldıqdan sonra "dövlət üçün zərərli hərəkətlərinə görə" məhkum olunub Həştərxana sürgün edildi... 1913-cü ilin yanvarında N.Nərimanov Həştərxan şəhər dumasına qlasnı seçildi və duma tribunasından çar orqanlarının mürtəce hərəkətlərini ifşa etməyə, əməkçi xalqın mənafeyini qorumağa başladı. N.Nərimanov 1913-cü ildə Bakıya qayıdıb ictimai-siyasi və ədəbi-publisistik fəaliyyəti daha böyük bir qüvvə ilə davam etdirdi, eyni zamanda Qaraşəhər xəstəxanasında həkimlik etməyə başladı. Nəriman Nərimanovun özü birinci dünya müharibəsinə qədərki ictimai-siyasi fəaliyyətini xalqın ictimai və milli qurtuluşu uğrunda mübarizə üçün düzgün yollar axtarmaq dövrü adlandırmışdır. Sosial-demokrat partiyalarının dərin böhran keçirdiyi, fəhlə hərəkat liderlərinin dönük çıxdığı və xəyanət etdiyi şəraitdə N.Nərimanov ziddiyyətlər dolanbacından çıxış yolunu, özünün sonralar qeyd etdiyi kimi, ancaq kommunizmdə tapmışdı. Birinci dünya müharibəsi illərində Azərbaycan bolşevikləri kütlələr içərisində inqilabi iş aparmaq üçün müxtəlif leqal imkanlardan bacarıqla istifadə edirdilər. N.Nərimanovun idarə heyəti sədri olduğu "Qənaət" kooperativi də həmin məqsədə xidmət edirdi. Kooperativ vasitəsi ilə Azərbaycan, rus və başqa dillərdə təşkil olunan mühazirələrdə və məruzələrdə inqilabi şüarlar təbliğ edilir, fəhlə hərəkatının aktual problemləri haqqında izahat verilirdi. N.Nərimanov, M.B.Basin, A.N.Stopini və digər bolşeviklər xalq evinin idarə heyətinə seçildikdə xalq evi vasitəsilə də fəhlələr arasında fəal inqilabi iş aparmağa başladılar. ... Bu coşğun aylarda N.Nərimanov daim inqilabçı kütlələr içərisində və hadisələrin mərkəzində idi: O, "Hümmət" qəzetində və digər nəşrlərdə dərc etdirdiyi məqalələrdə siniflər və sinfi mübarizə haqqında, xalq kütlələrinin tarixdə rolu haqqında, imperializmə qarşı mübarizədə zəhmətkeşlərin beynəlxalq həmrəyliyinin əhəmiyyəti haqqında marksizm ideyalarını təbliğ edirdi. Millətçilik və şovinizmin tüğyan etdiyi şəraitdə N.Nərimanov xalqın müqəddəratı ilə həyasızcasına oynayan və bunu "millətin", "dinin" müdafiəsi haqqında gurultulu ibarələrlə pərdələyən istismarçı təbəqənin xain siyasətini mərdliklə ifşa edirdi. O, burjua millətçilərinin fitnələrini çox kəskin surətdə və heç bir güzəştə getmədən aşkara çıxarır və pisləyirdi. N.Nərimanov dəfələrlə qeyd edirdi ki, Zaqafqaziya xalqlarının azadlığının rəhni onların rus xalqı ilə və digər xalqlarla birliyindən və qardaşlıq İttifaqından ibarətdir. Azərbaycan xalqının azadlıq mübarizəsi rus proletariatının Sovet hakimiyyəti uğrunda mübarizəsi ilə bağlıdır. N.Nərimanov

Azərbaycan zəhmətkeşlərinə müraciət edərək demişdi ki, əgər səadətiniz sizin üçün əzizdirsə, əgər azad yaşamaq istəyirsinizsə, digər millətlərin zəhmətkeşləri ilə birləşin. Yalnız onlarla birləşdikdə siz öz əzab-əziyyətlərinizin səbəblərini aradan qaldıra bilərsiniz. 1917-ci ilin iyun ayında "Hümmət" bolşevik təşkilatının yığıncağı N.Nərimanov başda olmaqla komitə seçdi. N.Nərimanov həm də Azərbaycanda marksizm ideyalarını yaymaqda, zəhmətkeşləri sosialist inqilabının qələbəsi uğrunda mübarizəyə hazırlaşdırmaqda mühüm rol oynayan "Hümmət" qəzetinin redaktoru idi. N.Nərimanov RSDF(b)P Bakı Kömitəsinin üzvü seçildi. Çoxmillətli Bakı proletariatı sosialist inqilabının beşiyi olan Petroqrad şəhərində silahlı üsyanın qələbəsindən ruhlanaraq bu böyük hadisədən bir neçə gün sonra bolşeviklər başda olmaqla Bakıda Sovet hakimiyyəti elan etdi. N.Nərimanov Böyük Oktyabr sosialist inqilabının əhəmiyyətini qeyd edərək yazırdı: "... Bu gün Rusiya inqilabı bütün cahan tarixinin təzə mühüm və gözəl bir səhifəsinin açılmasına səbəb olur. Biz hamımız şəhadət verə bilərik ki, bu səhifə bizim hüzurumuzda açıldı... Bu gün... sərmayələr və mülkədarların ümid ocağı dağılır, fəhlə və zəhmətkeş tarixində təzə bir səhifə açılır". N.Nərimanov 1918-ci il yanvarın 1-də "Hümmət" qəzetində zəhmətkeş xalqa müraciət edərək yazmışdır: "Sizin hər cəhətdən nicat yolunuz Leninin məramnaməsindədir... Hər yerdə çalışmalısınız ki, hökumət fəhləzəhmətkeş kəndçilər şuralarının ixtiyarına keçsin. Bu şuralar, ancaq bu təşkilatlar Leninin məramnaməsini qüvvətləndirəcəkdir və ancaq bunlar inqilabı dərinləşdirib möhkəmləndirəcəkdir". Gərgin iş N.Nərimanovun səhhətinə öz təsirini göstərdi və Bakı Partiya Komitəsinin təkidi ilə o, 1918-ci il iyunun axırlarında Həştərxana getdi. Xəstəliyinə baxmayaraq, N.Nərimanov fəal siyasi işi dayandırmırdı. RK(b)P Həştərxan Quberniya Komitəsinin tapşırığı ilə o, zəhmətkeşlər arasında təbliğat və təşviqat aparır, Quberniya İcraiyyə Komitəsində hərbi-siyasi işlər komissarlığında çalışırdı. Zaqafqaziya müsəlmanları işləri komissarlığının sədri idi. RK(b)P "Hümmət" təşkilatının Həştərxan bürosuna başçılıq edirdi. Həştərxanda ikən N.Nərimanov terror və təqib şəraitində gizli fəaliyyət göstərən Azərbaycan bolşevikləri ilə yaxından əlaqə saxlayırdı. O öz məqalələrində və məktublarında Zaqafqaziyada xarici müdaxiləçilərin hökmranlığına qarşı mübarizəyə çağırırdı. N.Nərimanov tərəfindən yazılıb böyük tirajla nəşr edilmiş "Biz Qafqaza nə şüar ilə gedirik" müraciətnaməsi 1919-cu ildə gizli olaraq Həştərxandan Azərbaycana göndərildi, fəhlə və kəndlilər arasında geniş yayıldı. Bu müraciətnamədə N.Nərimanov Sovet hakimiyyətinin əhəmiyyətini açıb göstərir, xalqları qardaşlıq və dostluğa səsləyir, Sovet Rusiyası ilə birliyə çağırırdı. 1919-cu il iyulun axırlarında N.Nərimanov işləmək üçün Moskvaya çağırıldı. RSFSR Xalq Xarici İşlər Komissarlığının Yaxın və Orta ġərq ölkələri şöbəsinin müdiri, sonra isə RSFSR xalq millətlər komissarının müavini vəzifələrində ikən Leninin xarici siyasətinin həyata keçirilməsində onun xidməti az olmadı. N.Nərimanov İran, Türkiyə, Əfqanıstan və digər ölkələrdə danışıqlar aparılmasında və sazişlər bağlanmasında iştirak edirdi. N.Nərimanov RK(b)P MK ġərq xalqları kommunist təşkilatları Mərkəzi Bürosunun tərkibinə daxil idi. Müstəmləkələrdə və asılı ölkələrdə milli azadlıq hərəkatının inkişafında Böyük Oktyabr sosialist inqilabının təsiri məsələləri N.Nərimanovun məqalələrində və çıxışlarında xüsusi yer tuturdu. N.Nərimanov deyirdi ki, ġərq zəhmətkeşlərini böyük Lenin ideyaları ilə tanış etməyə çalışmaq Leninin şagirdlərinin borcudur. N.Nərimanov İran, Türkiyə, Əfqanıstan fəhlələrinə və kəndliləri-nə müraciətnamələrin yazılmasında bilavasitə iştirak edirdi, bunlar xarici ġərq dövlətləri ilə Sovet Rusiyası arasında dostluq münasibətlərinin möhkəmlənməsinə səbəb olurdu. A.V.Lunaçarski N.Nərimanovu leninçi beynəlmiləlçi kimi, ġərqdə Sovet hakimiyyəti ideyalarının təbliğatçısı kimi səciyyələndirərək yazırdı ki, onun fəaliyyəti bir daha təsdiq edir ki, "bir tərəfdən kommunizm, marksizm, leninizm ideyası ilə, digər tərəfdən isə ġərq kütlələri ilə möhkəm bağlı olan inqilabçılar nə qədər qiymətlidir". N.Nərimanov qiyabi olaraq

Azərbaycan İnqilab Komitəsinin sədri seçildi. Həmin gün Azərbaycan İnqilab Komitəsinin iclasında N.N.Nərimanov başda olmaqla Azərbaycan Sovet Sosialist Respublikası Xalq Komissarları Soveti yaradıldı. V.İ.Lenin Azərbaycan SSR-nin yaradılmasına və möhkəmləndirilməsinə müstəsna əhəmiyyət verir. Sovet Azərbaycanının imperializm zülmü altında olan ġərqin qapısında nümunəvi sosialist respublikasına çevrilməyin zəruri olduğunu göstərdi. N.Nərimanov yazırdı: "V.İ.Lenin muxtar və müstəqil respublikalar arasında Türküstana və Azərbaycana xüsusi diqqət yetirirdi. O deyirdi ki, bu respublikalar ġərqin qapısıdır, bu respublikalarda edilən hər şey qonşu dövlətlərdə əks-səda oyandıracaqdır, buna görə də bu ölkələrdəki məzlumlar bizim mahiyyətimizi təşkil edən hər şeyi görəcək və hiss edəcəklər". N.Nərimanov Xalq Komissarları Sovetinin sədri vəzifəsində ikən S.M.Kirov, Q.M.Musabəyov, S.M.Əfəndiyev, A.P.Serebrovski, H.H.Sultanov, M.B.Qasımov, S.A.Ağamalıoğlu, D.X.Bünyadzadə, Ə.H.Qarayev, M.D.Hüseynov və digər partiya və dövlət xadimləri ilə birlikdə respublikada sosialist dəyişiklikləri yaratmaq uğrunda fəal mübarizə aparırdı. RSFSR ilə Azərbaycan arasında hərbi-iqtisadi İttifaq haqqında 1920-ci il sentyabrın 30-da Moskvada bağlanmış müqavilə Azərbaycanda Sovet hakimiyyətinin iqtisadi və siyasi cəhətdən möhkəmlənməsində həlledici rol oynadı. N.Nərimanovun V.İ.Leninə bir çox məktub və teleqramları qal-maqdadır. Onları oxuduqda gözümüzün qarşısında yeni həyat uğrunda, Azərbaycanın xoşbəxt gələcəyi uğrunda kəskin və gərgin mübarizə mənzərəsi canlanır. N.Nərimanov fəhlə və kəndlilərin coşğunluğu haqqında, yeni neft fontanları haqqında, istismarçı siniflərin müqaviməti haqqında, qarşıya çıxan çətinliklər haqqında, Azərbaycanda sosializm quruculuğunun hər bir müvəffəqiyyəti haqqında Vladimir İliçə məlumat verildi. Azərbaycan Sovet hökuməti V.İ.Leninin göstərişlərini rəhbər tutaraq neft sənayesini, Xəzər Ticarət Donanmasını, mədənləri, zavodları, balıq sənayesini, torpaqları və meşələri milliləşdirdi. Öl-kənin əsas yanacaq mənbəyi olan neft sənayesini bərpa etmək və yenidən qurmaq üçün çox iş görülürdü. O günlərdə N.Nərimanov deyirdi: "Biz var qüvvəmizlə çalışmalıyıq ki, həyatımızda fasilələr olmasın, bununla Sovet Rusiyasının vəziyyətini heç olmazsa, bir qədər yüngülləşdirək. Sovet Rusiyası olmasa, günü sabah biz məhv olarıq, buna görə də bütün səyimizi ona verməliyik ki, Sovet Rusiyası müntəzəm surətdə neft alsın..." Dağıntıya və aclığa baxmayaraq, Bakı neftçiləri neft hasilatını artırır və Sovet Rusiyasına getdikcə daha çox neft göndərirdilər. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi 1920-ci ilin dekabrında Ümumrusiya VIII Sovetlər qurultayı dünyada ilk dəfə olaraq iqtisadiyyatın inkişafına dair vahid ümumdövlət planını Rusiyanın elektrikləşdirilməsinə dair Dövlət planını (QOELRO) təsdiq etdi. V.İ.Lenin bu planı partiyanın ikinci proqramı adlandırmışdı. Sovet Azərbaycanı nümayəndə heyətinin üzvü kimi N.Nərimanov qurultayın işində iştirak etdi və Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsinin üzvü seçildi. 1920-ci il sentyabr-oktyabr aylarında AK(b)P Mərkəzi Komitə-sinin tapşırığı ilə N.Nərimanov başda olmaqla respublika rəhbər işçilərinin və Bakı fəhlələrinin bir qrupu Azərbaycan qəzalarını gəzdi. N.Nərimanov və nümayəndə heyətinin başqa üzvləri öz görüşləri və çıxışları zamanı Sovet hakimiyyətinin məqsədlərini və vəzifələrini Kommunist Partiyasının və sovet dövlətinin aqrar siyasətinin mahiyyətini zəhmətkeşlərə izah edir, fəhlələrlə kəndlilər İttifaqını hər vasitə ilə möhkəmlətməyin yeni həyat qurmaq üçün on-ların səylərini birləşdirməyin əhəmiyyətini qeyd edirdilər. N.Nərimanov deyirdi: "Gərək Azərbaycan fəhlələri və kəndliləri öz yaradıcılığına, öz qüvvələrinə inansınlar, gərək onlar bilsinlər ki, bir-birinin əmək məhsuldarlığına qarşılıqlı surətdə ehtiyacları vardır". Azərbaycan partiya təşkilatı maarif, mətbuat, elm, ədəbiyyat və incəsənətin inkişafı uğrunda qətiyyətlə mübarizə aparırdı. Respublikanın digər rəhbərləri kimi, N.Nərimanov da köhnə Azərbaycan ziyalılarını Sovet hakimiyyəti tərəfinə çəkmək üçün çox iş görmüş, yeni Azərbaycan ziyalılarının təşəkkül və

tərbiyəsinə ilk ali məktəblərin, texnikumların, kitabxanaların, muzeylərin və digər mədəni-maarif ocaqlarının yaradılmasına çox əmək sərf etmişdir. N.Nə-rimanov V.İ.Leninin "ġərqdə böyük inqilab" adlandırdığı yeni əlifbaya keçməyin təşəbbüsçülərindən biri idi. Respublikanın bolşevikləri partiyanın siyasətini həyata keçirmək sahəsində özlərinin bütün fəaliyyətində partiyanın qərarlarına Azərbaycan partiya təşkilatının beynəlmiləlçilik ənənələrinə daim sadiq qalırdılar. Onlar V.İ.Leninin göstərişlərini rəhbər tutaraq respublikamızın konkret şəraitində sosializm qurulucuğunda ümumi qanunauyğunluqları və milli cəhəti düzgün nəzərə almağa çalışırdılar. O illərin mürəkkəb və gərgin şəraitdə, vaxtı çatmış problemlərin düzgün həlli üçün yollar axtarışı zamanı bəzən Azərbaycan partiya və sovet işçiləri arasında fikir ayrılığı əmələ gəlir, ayrı-ayrı səhvlərə, o cümlədən N.Nərimanov tərəfindən də səhvlərə yol verilir və bunlar partiyanın Mərkəzi Komitəsinin köməyi ilə vaxtında aradan qaldırılırdı. Lakin həmin səhvlər N.Nərimanovun partiya və dövlət fəaliyyətinin prinsiplərinə əsla təsir göstərməmiş və N.Nərimanov ömrünün sonunadək mətin mübariz və əsl beynəlmiləlçi olaraq qalmışdı. N.Nərimanov geniş zəhmətkeş kütlələri ilə yaxından əlaqə saxlayır, onlara müstəsna bir həssaslıq və diqqətlə yanaşırdı. O, adamlarla ünsiyyətdən ən böyük zövq alan rəhbərlərdən idi. N.Nərimanov fəhlələr, kəndlilər, ziyalılar, qadınlar və gənclər qarşısında tez-tez çıxış edir, müntəzəm olaraq müəssisələrə və idarələrə baş çəkirdi. Kommunist İnternasionalı İcraiyyə Komitəsinin qərarı ilə 1920-ci ilin sentyabrında Bakıda ġərq xalqlarının birinci qurultayı çağırılmışdı. N.Nərimanov qurultayın hazırlanmasında və keçirilməsində fəal iştirak etdi. O, qurultayı açarkən ġərq xalqlarının azadlıq mübarizəsi üçün həmin qurultayın tarixi əhəmiyyətindən, kapitala qarşı mübarizədə inqilabçı qüvvələri birləşdirmək zərurətindən danışdı. V.İ.Lenin bu qurultayı "Bakı qurultayı" adlandırır və ona böyük əhəmiyyət verirdi. Vladimir İliç qeyd edirdi ki, "Moskvada kommunistlər qurultayının (Kominternin ikinci konqresi nəzərdə tutulur - H.Ə.) və Bakıda ġərq xalqlarının kommunist nümayəndələri qurultayının nə iş gördüyünü birdən-birə ölçmək olmaz, bunu bilavasitə hesaba almaq mümkün deyildir, lakin bu başqa hərbi qələbələrdən daha böyük əhəmiyyəti olan bir nailiyyətdir, zira bu bizə göstərir ki, bolşeviklərin təcrübəsi, onların fəaliyyəti, onların proqramı, onların kapitalistlərə və imperialistlərə qarşı inqilabi mübarizəyə qarşı çağırışı bütün dünyada rəğbət qazanmışdır və iyulda Moskvada, sentyabrda isə Bakıda görülən işi dünyanın bütün ölkələrində fəhlələr və kəndlilər hələ uzun aylar boyu mənimsəyəcək və dərk edəcəklər". ...Azərbaycan qadınlarının 1921-ci il fevral ayında toplaşan birinci qurultayı göstərdi ki, azərbaycanlı qadınları yeni həyat quruculuğuna fəal surətdə cəlb etmək sahəsində partiya təşkilatının gördüyü işlər səmərəli nəticələr verir. N.Nərimanov qurultayda ġərq kommunistlərinin vəzifələri haqqında məruzə etdi. O, nümayəndələrə müraciətlə dedi: "Sizin gözünüz qarşısında İndi keçirilən yığıncaq, yəni bu qurultay misilsiz yığıncaqdır, eşidilməmiş zülm altında olmuş və İndi azadlığa çıxmış Azərbaycan qadınları bu gün burada ilk dəfə izdihamlı qurultaya toplaşmışlar, öz fikirlərini söyləyəcəklər, ərlərinin görmüş və görməkdə olduqları işlərə qoşulacaqlar". Azərbaycan partiya təşkilatı özünün bütün fəaliyyətində daim Leninin göstərişlərini rəhbər tuturdu. Kommunistlər və bütün zəhmətkeşlər Azərbaycan, Gürcüstan, Ermənistan, Dağıstan və dağlılar respublikasındakı kommunist yoldaşlara V.İ.Leninin 1921-ci il 14 aprel tarixli məktubunda irəli sürülmüş vəzifələri özlərinin doğma işi kimi qarşıladılar. ...N.Nərimariov bununla əlaqədar olaraq AK(b)P MK plenumunda söylədiyi nitqində qeyd etdi ki, Azərbaycanda Lenin yoldaşın məktubunda müəyyən edilmiş xətti yeritmək lazımdır. Kommunist Partiyasının rəhbərliyi altında Zaqafqaziya sovet respublikalarının zəhmətkeşləri sosializm qurmağa başladılar. Dünya müharibəsi müdaxiləçilərin və daxili əksinqilabın ağalığı nəticəsində Zaqafqaziya iqtisadiyyatına vurulmuş yaraları sağaltmaq, xalq təsərrüfatını bərpa edib yeni ictimai təməl üzərində inkişaf etdirmək

lazım idi. ...1922-ci ilin fevralında Zaqafqaziya kommunist təşkilatlarının birinci qurultayında N.Nərimanov RK(b)P Zaqafqaziya Ölkə Komitəsinin tərkibinə, iyun ayında isə Zaqafqaziya Ölkə Partiya Komitəsi Rəyasət Heyətinə üzvlüyünə seçildi. Zaqafqaziya Ölkə Partiya Komitəsi Rəyasət Heyəti partiya, sovet və təsərrüfat quruculuğunun bütün sahələrində partiyanın Mərkəzi Komitəsinin Zaqafqaziya kommunistləri qarşısında qoyduğu vəzifələri həyata keçirmək üçün çox iş görürdü. S.M.Kirov, Q.K.Orconikidze və başqaları ilə birlikdə N.Nərimanov ZSFSR-in ayradılmasına rəhbərlik edirdi. N.Nərimanov 1922-ci il martın 12-də seçilmiş Zaqafqaziya Federasiyası İttifaq hökumətinin tərkibinə daxil idi. İttifaq Sovetinin sədrlərindən biri idi. 1922-ci ildə N.Nərimanov Genuya konfransında sovet nümayəndə heyətinin üzvü kimi iştirak etdi. Konfransda nümayəndə heyətimiz sosialist ölkəsinin mənafeyini burjua diplomatiyasının təcavüzkar hücumlarından qətiyyətlə qoruyur, sülh uğrunda mübarizə üçün konfransın tribunasından istifadə edirdi. Genuyadan qayıtdıqdan sonra N.Nərimanov konfransın yekunları haqqında, Sovet hökumətinin Leninin xarici siyasəti haqqında nitqlər söyləmiş və məqalələr yazmışdı. Bakı Sovetinin iclasında onun məruzəsi əsasında qəbul edilmiş qətnamədə Bakı proletariatı və bütün zəhmətkeş kütlələri adından qeyd edilmişdi ki, "... sovet nümayəndə heyəti Genuya konfransında fəhlə-kəndli kütlələrinin mənafeyini və böyük inqilabın bütün nailiyyətlərini şərəflə qorumuşdur. Rusiya Federasiyasının bütün nümayəndə heyəti ilə birlikdə N.Nərimanov yoldaş Bakı Sovetinin ona verdiyi tapşırığı çox gözəl yerinə yetirmişdir..." 1922-ci ilin dekabrında Bakının İndi toplaşdığımız bu salonunda birinci Zaqafqaziya Sovetlər qurultayı oldu. Qurultay Zaqafqaziya Sosialist Federativ Sovet Respublikasmın yaradılması və onun SSR İttifaqma daxil olması haqqında qərar qəbul etdi. N.Nərimanov qurultayı açarkən həmin günü tarixi gün adlandırmış və demişdi ki, "bu gün biz məhəbbətə, azadlığa, qardaşlığa və əməyin təntənəsi-nə yol açacağıq, ən asan, ən düzgün yol açacağıq". 1922-ci il dekabrın 30-da Moskvada Sovet Sosialist Respublikaları İttifaqının I Sovetlər qurultayı toplaşdı. Qurultay SSRİ-nin təşkili haqqında bəyannamə və İttifaq müqaviləsi qəbul etdi,. ali qanunvericilik orqanmı - SSRİ Mərkəzi İcraiyyə Komitəsini seçdi. M.İ.Kalinin, Q.İ.Petrovski, N.Nərimanov və A.T.Çervyakov SSRİ MİK sədrləri seçildilər. SSR İttifaqı Mərkəzi İcraiyyə Komitəsinin sədri kimi mühüm bir vəzifədə N.Nərimanov var qüvvəsini, biliyini, zəngin təcrübəsini çoxmillətli Sovet dövlətini və böyük Vətənimizin xalqları arasında dostluğu möhkəmlətməyə sərf edirdi. N.Nərimanov o dövrdə xalq təsərrüfatının bərpa və inkişafına rəhbərlik sahəsində dövlət orqanlarının və idarələrinin fəaliyyətinin bir çox cəhətlərini müəyyən edən ən mühüm dekretlərin, qərarların, müraciətnamələrin işlənib hazırlanmasında iştirak edir və yorulmadan çalışırdı ki, partiyanın və hökumətin dekretləri həyata keçirilsin. N.Nərimanov RK(b)P MK-nın bir sıra xarici siyasət tədbirlərinin həyata keçirilməsi sahəsində fəal iştirak edirdi. O, gənc Sovet dövlətinin xarici ölkələrlə demokratik və iqtisadi əlaqələrini möhkəmləndirmiş olan bir sıra ticarət sazişlərinin və digər sazişlərin bağlanmasında bilavasitə iştirak etmişdir. N.Nəfimanov 1923-cü ilin iyul ayında SSRİ MİK ikinci sessiyasının keçirilməsində fəal rol oynamışdı. Həmin sessiya ilk İttifaq hökumətini - V.İ.Lenin başda olmaqla Sovet Sosialist Respublikaları İttifaqı Xalq Komissarları Sovetini yaratmışdı. N.Nərimanov sessiyanı bağlayarkən demişdi: "İnqilabi həyatımızın ilk üç ilini biz başlıca olaraq xarici və daxili düşmənlərlə mübarizəyə sərf etdik. O zaman hələ rəsmi İttifaq yox idi, lakin hər bir respublika ayrılıqda hiss edirdi ki, yalnız digər respublikalarla birləşdikdən sonra düşmənə üstün gələ bilər. Doğrudan da, bu birlik gözəl nəticələr verdi. Bizim yeni birliyimiz - İttifaq birliyimiz də, ġübhəsiz, bu cür parlaq nəticələr verəcəkdir. Maddi sərvətlərin səmərəli şəkildə bir-birinə yaxınlaşdırılması, canlı qüvvələrin səmərəli bölgüsü, vaxtın az sərf edilməsi və işin daha çox səmərə verməsi - bunlar gələcək qüdrətin rəhni olan həmin birliyin əsasını təşkil edir". ...N.Nərimanov "Pravda", "İzvestiya" qəzetlərində və digər

qəzetlərlə fəal əməkdaşlıq edir, sovet milli və dövlət quruculuğu məsələləri haqqında, ġərq problemləri haqqında orada tez-tez məqalələr dərc etdirirdi. Moskvada işlədiyi dövrdə o, SSRİ MİK-in yanında ġərqşünaslıq İnstitutunda, ġərq zəhmətkeşlərinin kommunizm universitetində mühazirələr oxuyur, universitet üçün dərs planı və dərs proqramları hazırlamaq işində iştirak edirdi. N.Nərimanovun "Lenin və ġərq", "Bir il Leninsiz", "Lenin və müsəlman ġərqi", "Elmi kommunizmi başa düşmək yolları", "Milli məsələ" və digər diqqətəlayiq əsərləri marksizm-leninizm təliminə həsr edilmişdir. Təqribən yarım əsr bundan əvvəl N.Nərimanov yazmışdı: "... Vladimir İliç Lenini səciyyələndirən iş mürəkkəb və çoxcəhətlidir. Bir nitqdə, bir məqalədə hər şeyi əhatə etmək mümkün deyildir, bunun üçün cildcild kitablar yazmaq lazımdır, bütöv bir məktəb lazımdır ki, xüsusi metodlarla əsrimizin bu böyük insanın fikrini bütün dərinliyi ilə müntəzəm surətdə öyrənsin". N.Nərimanov 1924-cü il yanvarın 26-da SSRİ ikinci Sovetlər qurultayının matəm iclasında çıxış edərkən demişdi: "Lenin yoldaşın böyüklüyü, qüdrəti ondadır ki, o, dünyanın bütün məzlumlarını öz ətrafına toplamışdır. Leninin qüdrətli sözləri, onun göstərişləri ġərqin məzlumlarının qəlbində xüsusilə dərin kök salmışdır. ġərqin məzlumları Lenin yoldaşın göstərişlərindən əvvəl belə güman edirdilər ki, onlar üçün heç bir çarə yoxdur, onların taleyi onları Avropa kapitalının zülmünə məhkum etmişdir. Lakin Lenin yoldaş öz qüdrətli sözünü dedi və nümunə ilə göstərdi ki, məzlumlar burjuaziyanın qəyyumluğundan xilas ola bilərlər və ġərqin məzlumları başa düşdülər ki, özlərinin azad olunmaqları haqqında düşünmək vaxtı çatmışdır... ġərqin bütün məzlumları öz arzu və məqsədlərinə nail olmaq üçün daha artıq birləşəcəklər". 1925-ci il martın 19-da N.Nərimanov qəflətən vəfat etdi. Onu Qızıl Meydanda, qədim Kreml divarı yanında dəfn etdilər. M.İ.Kalinin matəm nitqində çıxış edərkən dedi: "Nəriman Nərimanov Kommunist Partiyasının üzvü idi, elə bir partiyanın ki, o, bütün qüvvələrdən, bütün yaxşı səylərdən bəşəriyyətin səadəti naminə istifadə etməyə imkan verir... N.Nərimanov yoldaşın şəxsində biz öz doğma partiyamızın sıralarındakı bir yoldaşımızı və dostumuzu dəfn edirik. Onun şəxsində Qızıl Meydan ġərq xalqlarından birinci qurbanı öz ağuşuna alır... Nəriman Nərimanov yoldaş sədaqətli kommunist kimi öz borcunu sonadək yerinə yetirdi; o, son nəfəsinədək öz qüvvəsini əsirgəmədən işlədi". Bu sözlərlə Azərbaycan xalqının şanlı oğlu, böyük, məzmunlu və dərin mənalı həyat yolu keçmiş Nəriman Nərimanovun xidmətlərinə yüksək qiymət verilmişdir.

***"Ədəbiyyat və incəsənət" qəzeti, 1 iyul 1972-ci il Heydər Əliyev.***
***"Ədəbiyyatın yüksək borcu və amalı".-Bakı.-2000.-S. 31-45.***